**2019-cu il üçün Bank Ombudsmanı fəaliyyəti haqqında**
**HESABAT**

Bank Ombudsmanı banklarla onların fiziki şəxs müştəriləri arasında yaranan mübahisələrin araşdırılması üzrə Azərbaycan Banklar Assosiasiyasının nəzdində artıq 3 ilə yaxındır müstəqil olaraq fəaliyyət göstərən orqandır. Əsas məqsədimiz banklar və fiziki şəxslər arasında müqavilələrin bağlanması, dəyişdirilməsi, icrası və ya xitam verilməsi ilə bağlı yaranan hüquqi və mülki mübahisələrin məhkəməyə müraciət etmədən aradan qaldırılması, insanların bank sisteminə etimadının gücləndirilməsi və əhalinin maarifləndirilməsidir.

Hazırda ABA-ya üzv olan banklarla onların müştəriləri - fiziki şəxslərlə əlaqədar mübahisələrin baxılmaq üçün Bank Ombudsmanına verilməsi haqqında Bəyannamə 27 bank və 2 bank olmayan kredit təşkilatları tərəfindən imzalanmış və digər banklarla bu istiqamətdə danışıqların aparılmaqdadır.

Bank Ombudsmanı 10 yanvar 2019-cu il tarixində Azərbaycan Vəkillər Kollegiyası tərəfindən "Hyatt Regency" hotelinin Quba zalında təşkil edilmiş "Kommersiya mediasiyası və mübahisələrin həlli sistemlərinin qurulması" mövzusunda Konfransda iştirak edərək bu sahədə fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 3 aprel 2019-cu il tarixli Fərmandan irəli gələn tapşırıqların icrası ilə əlaqədar Avropa İttifaqının Ədliyyə Nazirliyi ilə birgə həyata keçirdiyi layihə çərçivəsində Bakıda 22-23 iyul tarixində keçirilmiş iki günlük seminarda Bank Ombudsmanı iştirak etmişdir. Eyni zamanda, adı çəkilən Fərmanda qeyd olunan müddəalara əsasən, Arbitraj Məhkəmələrinin yaradılması ilə bağlı yaradılmış xüsusi İşçi qrupa daxil edilmiş və layihənin formalaşmasında iştirak etmişdir.

4 noyabr 2019-cu il tarixdə Ədliyyə Nazirliyinin təşkilatçılığı, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Mübahisələrin Alternativ həlli və əhaliyə hüquqi yardım göstərilməsi" adlı layihənin açılış mərasimində iştirak edərək, bu layihədə Bank Ombudsmanının fəaliyyətinə aid işlər haqqında fikir mübadiləsi aparılmışdır.

2019-cu ildə Bank Ombudsmanının fəaliyyəti dövründə 89 müraciət daxil olmuşdur. Müraciətlər üzrə, 16 qərar verilmiş və 9 Barışıq sazişi imzalanmışdır. Daxil olan müraciətlərin əksəriyyəti Bank Ombudsmanının səlahiyyətlərinə aid olmadığı üçün aidiyyatı üzrə göndərilmişdir.

Müraciətlərə əsasən, “Azərbaycan Respublikası fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il imzaladığı Fərmanın tətbiqi ilə bağlı kompensasiyanın verilməsi və restrukturizasiya prosesinin keçirilməsi, sosial dolanışıq vəziyyətinə görə artan aylıq ödənişlərinin ödəmə imkanın zəifləməsi səbəbindən aylıq ödənişlərə və hesablanmış faizlərə müəyyən güzəştlərin edilməsi, Bank tərəfindən faizlərin düzgün hesablanılmaması iddiası, pozulmuş hüquqların bərpası, tərəflərin öhdəlikləri düzgün yerinə yetirməməsi və s. daxildir.

Eyni zamanda, Bank Ombudsmanı İkram Kərimov Vəkillər Kollegiyasının Rəyasət Heyətinin qərarı ilə 14 yanvar 2019-cu il tarixində Vəkillər Kollegiyasının üzvlüyünə qəbul edilərək Kollegiyanın Ağsaqqallar Şurasının sədri seçilmişdir.